1 manat

АРХИВ

М. Мушфик

# ГЮНУН СЕСЛЕРИ

## (Голос дня)

Азернешр- 1932

M. MYŞFIQ

# GYNYN SƏSLƏRI

М. Ф. Ахундов адына
Азәрбайҹан Республика
ҮМУМИ КИТАБХАНАСЫ

AZƏRNƏŞR

Bakь—1932

Redaqtoru:
H. MƏHDI
Texredaqtoru:
H. NAHID
Buraqьçь:
H. RƏHIMOV

*Qaвьqьnь rəssam*
*ƏMIR HAÇЬ ZADƏ*
*çəkmişdir.*

Baş Mətbuat Mydirliji Myvəkkili 2259. ADN 124. Sifariş 657
Tirazь 3000.

Istehsalata verilmiş 27/VI-32 Çapa imzalanmьş 17/IX-32
Kitaвьn həçmi 4 1/4 cap listi. Kaqьzьn formatь 72×110
Azərnəşr mətвəəsində вasьldь.
Bakь, B.-Morsqoj və Qrasno-Presnenski kycələrin tinində 16/36

# MYŞFIQIN JOLU.

O, doqrudan da səmimi olaraq e'tiraf edir, bu e'tirafa biz də inanьrьz. Myşfiq proletar şairi dejildir:

Joldaşlar
Mən,
Bolşevik dijarьnda
Beş illigin planьn
Ьşьldajan rajlarьnda
Sosializmə doqru qoşan kytlələrin
Əzəməti qarşьsьnda
Dona qalmьş bir şairəm
Bu səmimi bir e'tiraf—
Acьq, saf...

O, proletariatьn «bəjyk işlə»ri qarşьsьnda «hejran» qalmьş bir şair olduqunu e'tiraf edir. Lakin o, sosializm quruluşunun qalibijjətinə inanьr.

Myşfiq proletar şairi dejildir. O, hec bir zaman proletar şairi olmamьşdьr da. O jalьnьz, proletar şairi olmaq istəjən çьqьrdaş bir şairdir. Myşfiq, proletar inqilabьna doqru —inqilabьn əz icindən gələn bir şair dejil, bəlkə bu inqilabьn əsas məsələləri həllində aqtivçəsinə carpьşmaq istəjən xьrda burzuazja zijalьlarь arasьndan iləri gələn bir şairdir.

Ən coq əski ədəbijjatьnьn və bu ədəbijjatь doquran əski ictimai əlaqələrin məhsulu olan bir sьra

jazьcьlar, proletar inqilabьnьn bytyn myvəffəqijjətlərini gərdykləri zaman, əz qarşьlarьna əsas bir məsələ qojurlar: hansь jollarla jeniləşmək olar, hansь jollarla proletar inqilabьna yzvi surətdə baqlanmaq olar?

Bu jolu tapanlar az dejildir. Bu jaqьn zamanlarda əzynyn «Hidrosentral» adlь bəjyk romanьnь nəşr etmiş olan Marietta Şaginjanь alalьm: Şaginjan əski çəmijjətin adamьdьr, o, iki ajaqilə əski çəmijjətə baqlьdьr. Lakin Marqs: «Insanьn mahijjəti —içtimai əlaqələrin məhsuludur» demişdir. Insan əzyny jenidən qura bilər; içtimai əlaqələr insanь, onun idealozi istiqamətini dəjişər. Şaginjan da dəjişir və jeniləşir. O, «Hidrosentral» əsərində bir myttəfiq jazьcь olaraq mejdana cьqьr. Əvvəlləri əzynyn proletar inqilabь jazьcьsь ola bilməsinə qət'i surətdə inanmajan və jeniləşmənin mymkyn olmasьnь iddia edən Şaginjanьn, bu addьmь ata bilməsinə səbəb nədir? Buna səbəb Marietta Şaginjanьn marqsizmi, proletar inqilabьnь əjrənməsi, işci sьnfьnьn inqilabь praqtiqasilə uzun bir zaman çiddi əlaqə saqlamasьdьr.

Marqsizm-leninizm, proletar inqilabь və sosialist çəmijjəti uqrunda carpьşmaq istəjən jazьcьnьn jeganə joludur. Marqsizmə jabançь olan hər hansь bir jol—jalьnьz və jalьnьz dyşmən çəbhəsinə aparьr.

Myşfiq, bu əsas məsələni anlaja bilmişdirmi? Anlamьşdьr; lakin anlamaq hec də kafi dejildir. Marqsizm metoduna hakim olmaq, xьrda burzuazija dynjajь gəryş tərzini materialist dialeqtiqasilə əvəz etmək, proletar sən'əti uqrundakь mybarəzənin mahijjətini dyşynmək, işci sьnfьnьn inqilabь praqtiqasilə jaşamaq, bu mybarəzəni anlaja bilməgi baçarmaq lazьmdьr.



Bunlar hələ Myşfiqdə joqdur. O, hər şejdən jazьr. Zərbəcilik, jarьş, neft, pambuq uqrunda aparьlan mybarəzələrdən bəhs edir. Əçəba jalьnьz bəhs etməklə kifajətlənmək olarmь? Qət'i surətdə xajьr

Bu gyn ədəbijjat çəbhəsində burzua-liberalizm məfkurəsini ifadə edən «pereval» ədəbi məktəbinin bir sьra nymajəndələri, vaqtilə əz deqlarasjalarьnda bəjyk sənaje myəssəsələrinə gedərək, sosializm quruluşilə jaqьndan əlaqə saqlajaçaqlarьnь bildirmişlərdi.

Lakin «pereval»cьlar hansь dynja gəryşilə sosialist myəssəsələrində gedən mybarəzəni təsvir edəçəklərdi? Onlarьn jaradьçьlьq platformalarь, ədəbi-sijasi xətləri, sən'ətə olan baqьşlarь tamamən marqsizmə jabancь olduqu bir zamanda əlkəmizdə gedən sьnfь mybarəzə haqqьnda dyzgyn təsəvvyr verə bilərlərdimi? Şybhəsiz ki, xajьr.

Bu gyn jeni burzua jazьcьlarь da sosializm quruluşundan bəhs edirlər. Bu o deməkdirmi ki, burzua jazьcьlarь inqilabь bir vəzifəni ifa edirlər? Jenə xajьr.

Biz hər zaman dynja gəryşyny (jaradьçьlьq metodunun) həll ediçi bir əhəmijjətə malik olduqunu qejd etməklə, bu və ja digər sən'ətkarьn əsərlərini qijmətləndirərkən, bilxassə onun, hansь sьnьfьn dynja gəryşyny ifadə etməsinə nəzər jetiririz.

Bu nəqteji-nəzərdən Mysfiqin bədii jaradьçьlьqьnь qijmətləndirərkən, bytyn qətijjətlə qejd etməlijiz ki, ondakь xьrda burzua gəryşy bytyn məsələləri janlьş həll etməsinə səbəb olur.

«Kyləklər» adlь şeirlər kitabcasьnь alalьm: Burada M. Myşfiq hətta bə'zən acьq qolconaq tə'sirlərini ifadə edirdi. Onun «Gəj-gəl» şejri (əsas e'tibarilə əksi-inqilabcь Çavadьn «Gəj-gəl» əsərinə çavab olmasьna baqmajaraq) şənli məfkurəsinin bə'zi unsyrlərini ifadə edirdi.

«Kyləklər»i Myşfiq өzy neçə qijmətləndirir:

Kyləklərim əsdi kecdi
O da bir həvəsdi kecdi
Kyləklərim əsdi kecdi
Kecmişimlə barabar.
Coqdandьr ki, «kyləklərdən»
O vərəmli əsərdən
Өlmyşmy, qalmьşmь almadan bir xəbər
Mən jədəmə gedən «kyləklərin» arqa-
sьnça
Baqmadьm bir dul kibi
Kyləklərim əsdi kecdi
Nə mylajim nə əsəbi.

Myşfiq, jenə də «Kyləklər» kitabьnda buraqdьqь bir sьra səhvləri lazьmь qədər dyşynməmişdir. Məsələn, «Kyləklərin» nə əsəbi, nə mylajim əsməsində dejil, bəlkə bu əsərdəki prinsip səhvlərdə və janlьş istiqamətdədir. Myşfiq məsələnin bu əhəmijjətli çihətini hələ də anlaja bilməmişdir. O, səhvlərinin əsasьnь hələ də dyşynə bilməmişdir.

Proletar sən'əti
Dөjyşkən bir sən'ətdir.
Varlьqa dəjişib jenidən qurmaqa
jardьm edər.

Lakin Myşfiq өz bədii praqtiqasьndan bu doqry fikrini həjata kecirməjir. Bu sən'əti jaratmaq ycyn dynjanь dəjişən sьnfьn—proletariatьn—dynja gөrynyşynə malik olmaq lazьmdьr.

Bə'ziləri Myşfiqi nasionalizmdə taqsьrlandьrьrlar. Bu, şybhəsiz bysbytyn janlьş bir fikirdir.

«Kecid» əsəri, məfkurəvi istiqaməti e'tibarilə nasionalizm əlejhinə cevrilmişdir.

Myşfiq bu əsərilə proletar məfkurəsi relslərinə kecə bilmək ycyn çiddi addьm atmaq yzrədir. Lakin bu addьmda da bir sьra bydrəmələr vardьr. Bunlarьn başlьça səbəbi onun—Myşfiqin jaradьçьlьq metodundakь xьrda burzua məfkurəsi qalqьlarьdьr. Bu qalqьlar yzərində tam qalibijjət əldə etmək ycyn marqsizm, leninizm islahьna sarьnmaqdan başqa bir jol joqdur. Myşfiq bunu bilməli və jadьnda saqlamalьdьr.

*H. Mehdi*

---

## BAŞLANƢЬC

Kəhnə əngəlləri biz susdurduq
Jeni dynjaja təməllər qurduq,
Bunun ystyndə gərək indi bizim
Tez qurulsun da bəjyk sosializm.



# I. JENI IL.

## JENİ İL

### Xitab

Joldaşlar!
Mən bolşeviklər dijarında
Beş illigin planьn
  ьşьldajan rajlarьnda,
Sosializmə doqru qoşan kytlələrin,
Dneprostroj dalqalarь kibi
  aşьb daşan kytlələrin
Əzəməti qarşьsьnda
Dona qalmьş bir şairəm,
Bu səmimi bir e'tiraf acьq, saf...

**
*

Bu bir sərki...
  өzym vurdum өzymə.
Baxtьjardьr o şair ki
Rybabьnda myhitinin mahnьsьnь caqьrьr
Sonra bytyn gur səsilə
  gələçəjə hajqьrьr.

**
*

Hanь mənim o, nəqməm—o, rybabьm
O, divanьm—kitabьm
Hanь mənim o şeirim ki, өz jerində—
Jeni insan myhitləri yzərində

Bir qasьrqa halьnda qьvrьlsьn
Hər parcasь
Jeni ruhlar səhrasьna daqьlsьn.
Ytanmazmь, Fizulunun adьnь cəkən
ozy bir heckən
Fikrətin «Tarix qədimi»ini qrurunda bulan
Bojyklyk xastalьqьna dutulan
«Qьzaran ulduzlarьn şairi»?
Hanь sənin, dort jyz sənə
Donə-donə
Jaşajaçaq dastanьn?
Gəl cəkmə ozyny juqarь
O daha qartalьnьn qanatlarь
Bu gyn belə carpьnьr
Qaralan qaşlarda
Daqlarda-daşlarda.
«Pəhlavanlar badpalar
Səjirdəndə hər jana
Tifl həm çevlan edər
Amma aqacdan atь var»
Bu mejdanda aqac da joq
Qarqьdandьr atьn sənin
Şeir yfqyndə acьlmaz qanadьn sənin.

## PROLETAR SƏN'ƏTI

Jad sьnьflar sən'ətindən—
Içtimai həjatь
Ajdan arь, sudan duru
Daha doqru
Daha sərt, daha qьvraq
Daha ajdьn, daha parlaq
Idrak edən bir sən'ətdir.
Proletar sən'əti—
Dojyşkən bir sən'ətdir



Varlьqь dəjişib jenidən qurmaqa
jardьm edər.
O, dejildir sənin, mənim
Şe'rim kibi dərbədər.
Jazalьm, ozymyzy əjməjəlim
Fizuluja «dəjməjəlim»

## «KYLƏKLƏR»

Mən də jazdьm sənin kibi
Bir xejli çəfəngijat
Fəqət hejhat
«Kyləklərim» əsdi kecdi
O da bir həvəsdi kecdi
«Kyləklərim» əsdi kecdi
Kecmişimlə barabar.
Coqdandьr ki «kyləklər»dən
O vərəmli əsərdən
Olmyşmy, qalmьşmь almadьm bir xəbər
Mən ədəmə gedən «kyləklər»in arqasьnça
Baqmadьm bir dul kibi.
«Kyləklər»im əsdi kecdi
Nə mylajim, nə əsəbi.
Nə bir bojyk fьrtьna qaldьrdьlar.
Nə qaralan qaşlarьn altьndan
Bir bulut saldьrdьlar.

## ILLƏR

Illər kylək jyryşy
Qartal qanadlь illər
Jaşajьş jollarьnda
Jəhərli atlь illər
***

Hər biriniz nymunə
Dalqalь bir dənizdən
Өmrymyzyn jelkəni
Qajar yzərinizdən.

***

Bizi bu çədəlgaha
Atar atmaz anamьz
Başlar myhitinizdə
Çoşmaja fьrtьnanьz

***

Bəlkə biz olmasajdьq
Siz daim anlь-şanlь
Qoşardьnьz, nəş'əjə
Yrəginiz nişanlь

***

Cobansьz syry kibi
Başьnьz boş olurdu.
Gyndyzynyz fərəhli
Geçəniz xoş olurdu.

***

Illər, bizi joqluqdan
Varlьqa atan illər...

## JENI IL

Bu il bizim
Icimizdə bir az daha
Dəmirləşir sosializm.
Bu il jeni il dejildir.
Bu il bizi dirildir.
Bu iiin girdiji gyn
Nə syfrələr acьldь.
Nə sərxoş qəhqəhələr
Kycələrə sacьldь.



Nə dəzgahlar dajandь
Fabrikdə sənmədi ьşьqlar jandь.
Işlədi maşьnlar
Metro oldu arşьnlar.
Bir az daha coq toqundu malьmьz.
«Dəjişmədi» halьmьz.

***

Bu jeni il
Faşislərinki dejil!
Bizim ilimiz ajrь
Onlarьn ili ajrь
Bizimki qьp-qьrmьzь,
Onlarьnki sap-sarь.
Bu jeni il işcilərin bajramьnda
Həjaçanlь devlərindir.
Bu jeni il zavodlarьn baçasьndan
Hər baçanьn uçasьndan
Yfyqlərə doqru aqan
Aqa-aqa iz buraqan
Qara sellər bajramь.

***

Bu jeni il işcilərin bajramьnda
Qьzьl əskər nizamьnda
Jan-jana dizilən
Polat dirəklərdən
Geçələrə hyçum edən
Icində gur sellərin
Dənizlərin, gəllərin
Qyvvəsini daşьjan,
Insan vyçudundakь
Damarlara oqşajan
Sonsuz tellər bajramь.

***

Bu jeni il cəllərdəki qoça-qoça
Juça-juça
Zavodlarьn, fabriklərin bajramь.
Qolxozlarьn, elliklərin bajramь.

**
*

Bu jeni il cuqun, dəmir
Zavodunda japьlan
Beş illik plan
Maşьnlarьnьn.
Insan əli dutmajan
Insan gyçy catmajan
Metallarь qaldьrdьqь ildir
Bu il bizdən əvvəlki
Kөhnə sərxoş il dejildir.

**
*

Bu jeni il Bakьda
Qroznada
Uralda
Bu gynky halda;
Uzun dərinliklərə
Zərbə calanlarьndьr.
Jeraltь dənizlərə
Ləngər salanlarьndьr.

**
*

Bu bajram, dəmirdən, daşdan
Jaranmьş devlərin.
Qapьsь sosializmə
Acьlan evlərin
«Polat» «sədcinlərin»
Həqiqi giqantlarьn bajramь.
Şair xijalь kibi
Bir-birinə qarьşan
Bir-birilə jarьşan,
Asfalt çьdьr dyzlərində
Qoşuşan atlarьn bajramь.



Bu bajram xam mallarla dolu
Daqlarьn daşlarьn
Axtarьşa cьqan joldaşlarьn
Beş qit'əjə hajqьranlarьn bajramь
Qazmacь maşьnlarьn
Jeni dynja relslərində
Yfyqlərə jyk qaldьran
Qьranlarьn bajramь.

## SU VƏ KYLƏK

Zaman gələr
Topraq bizdən
Əsirgəjə petrolunu
Fəqət mөhkəm bolşeviklər
Mybarəzə səhnəsində
Jadьrqamaz rolunu
Jer yzyndə sular var
Sularda dalqalar var,
Dalqalarda ryzgar var,
Həpsi—bizim qyvvətimiz...
Biz sularь, kyləkləri
Fəth edəriz.
Kylək—qyvvət,
Su—qyvvət
Nə genişdir təbiət.
Bu il məçhul iqlimlərə jelkən acan
Gedişlərin bajramь.
Fil xortumlu maşьnlarьn
Xortumlarь altьndakь
Qart dişlərin bajramь.

Başьmьzьn yzərində
Xьzla əsən

17492
AZƏRBAJCAN ...
М. Ф. Ахундов ...
Азәрбайчан Республика ...

Qajalar var
Ajaqьmьz altьnda ilan-ilan
Qьvrьlan
cajlar var.
Həp bunlarla genişlər
Dynjamьzьn çərcivəsi
Bu cajlarьn hər dalqasь
Bir sarsьlmaz at qyvvəsi.

---



## DNEPR VƏ ŞEVCENQO

Ej şair ej
Uqrajna şairi
Istərdim ki, diri-diri
Gəmsynlər səni Dneprə
Hər jazdьqьn şeirə
Dneprin bir dalqasь qarьşdь.
Şeirindəki misra'lar
Dalqalarla jarьşdь.
Sən qorqardьn Dneprdən
Indi o caj qorqur bir pionerdən.
O nəhir indi daşьr kəksyndə
Doqsan min at qyvvəsində
trubinalar.
Bu qyvvədən ьşьqlanьr
Mə'ruzəli binalar.
Aqan suda
Turbinlərin carxlarь
Hərləndikçə baş hərlənir.
Jyz-jyz zavod
Min, min fabrik işlədikçə
Avropada daq, hərlənir, daş
hərlənir.

## SULARDA JANQЬN

Yzgycylər əllərində fanar
Dneprdə su altьnda odlar janar.
Əfsanələr əfsanəsi...
Qatь polat qatlarьnь
Parcalamaq cətin dejil,
Doqram-doqram edərək
Xьrcalamaq cətin dejil.
Lakin sular altьnda
Polatlarь doqramaqcьn
Məqsədə oqramaqcьn;
Su altьnda qaz alavь jaratmaq
Insan ycyn bu sadə bir ojunçaq.
Yzgycylər əllərində fanar
Su altьnda odlar janar
Əfsanələr-əfsanəsi...

## DAŞ KƟMYR

Fabrik, zavod coqalьr
Ehtijaçlar həm artьr, həm joqalьr.
Donbas bizə kɵmyr verir.
Oçaqlara ɵmyr verir.
O, tajlarda
Altajlarda
Jer altьnda
Jerin gizli qatьnda
Qalьn kɵmyr qatlarь var.
Bu jeni il
Bu qatlarьn bajramь..
Bu qatlarь didmək ycyn
Şuralarьn ylgyç dьrnaq
atlarь var.
Bu jeni il—bu atlarьn bajramь.



## NEFT—ILIC BUXTASЬ

Byrymyş devrəmi dəhşətli, qudurmuş ləpələr
Dolanьb devrəmi azqьn ləpələr rəqs ejlər.
Oqşajьr gɵnlymy hər bir ləpənin xoş jyryşy.
Qara neftim kibi sahildəki sərxoş jyryşy.
Bəni almьş bu xyraman ləpələr ortalьqa
Ninni sɵjlər mənə, çoşqun gɵrynən hər dalqa.
Gəzdirib iştə xəzər şevqilə bojnunda məni
Xəzərin lytfi baqьn hec əsər ejlərmi bana
Ehtiraslarla sьqar dalqalь qojnunda bəni
Baqmadan bir qoça arslan kibi hajqьrmasьna
Qoc tulumbamla onun kɵksyny çьrmaqlajьram;
Qoşaraq fabrikə dəzgahlarь mən jaqlajьram.
Əlvida' ejləmişəm aqzь acьq vedrələrə
Etmişəm qət'i, hyçum bir başa əngin xəzərə
Cəkirəm nefti tulumbajla, mənim Buxta adьm
Sujun altьnda balьqlar kibi carpьr qanadьm.
Bitirib tezçə beş illik planьn tonlarьnь
Durmadьm qarşьladьm ajrь beş illig jarьnь.
Mənə çan vermədə minlərçə polat zərbəcilər.
Gɵrdygym işlərə dyşmən də təəççyb ejlər
Jeni il girdigi gyn mən də qoşuldum selinə.
Mən də girdim şu beş illik planьn son ilinə.

## USTALAR

Bu jeni il gynəş dejil,
Eleqtrik. ьşьqilə ьşьqlanan
Bir dijarьn bajramь.
Maşьn japan
Kaqьz kəsən
Hesab cəkən
Ip əjirən

Əkin əkən
Çanьmьz dəmir ustalarьn bajramь!
**SON**
Bu jeni il Stalinqrad
Zavodlarьnda cьqan
Uqrajna cəllərini
Өzbəgstan, Azərbajçan millərini
Hərəkətə gətirən
Pambuq taxьl jetirən
Traqtorlar bajramь.
Dev motorlar bajramь.
***
Bu jeni il
Bizə həjat
Bizə jeni bir kainat
Bizə qat-qat
Əzm—səbat
Gətirən il.
Bu il bizdən əvvəlki
Kөhnə sərxoş il dejil.
Bu jeni il xariçdəki dyşmənlərin
şaşdьgь gyn.
Proletar gyvvəsinin
Aşьb-aşьb daşdьqь gyn.
Bu jeni il insanlarь dəjişən il
Bu jeni il içtimai çəmijjətcin dөjyşən il
Bu jeni il
dynjamьzь cevirməkcin
Bir istinad noqtasь
Bu illərin əlindədir
Qapitalizmin noxtasь.

---



# II. GYNYN SƏSLƏRI.

## ZƏFƏR SƏSLƏRI

Gediriz
Gediriz, gediriz
Getməjir ucuruz
ucuruz...
Ucmajьr bir şimşək olub da caqьrьz
Aqьrьz-aqьrьz
Kecmişin yzynə şillələr vuraraq aqьrьz
Elliklə jarьnь quraraq aqьrьz.

## ZƏFƏRDƏN ZƏFƏRƏ

Beş illik planь
Iki il jarьmda jerinə jetirdik.
Deməli bitirdik.
Işlərin qalanь
Daha coq,
Bir talcoq:
Gərəkdir verilən işləri,
Aparsьn iləri
Aparsьn iləri gələçək beş illik zəfəri
Hər şura nəfəri.

***

Çavab ver Apşeron!
Qəlbindən necə ton,
Şu aqan
Jeni qan

Caqlamьş ƒьşqьra-ƒьşqьra
Qьşqьra-qьşqьra?!
Joq gərək
Bir cərək
Qalmasьn boş jerin
Joldaşlar gəstərin
Topraqьn altьnda
Topraqьn ən məçhul qatьnda
Gizlənən o xəsis qajnaqь
Doqunsun ona bir myhəndis çajnaqь
Arasьn zərbəci myhəndis
Bizimcin jeraltь bir dəniz.

***

Arajьr aramьş
Bir qarьş
Jer belə qacmamьş gəzyndən,
Dənməmiş səzyndən,
Verdiji ilqarь jetirmiş jerinə
Baqьnьz qac jeni buruqun sejrinə
Daldьrmьş bizləri....
O jyksək rəqmə qaldьrmьş bizləri.

## FIRQƏNIN SƏSI

Ej Buxta
Nədir o vəqarlь buruqda,
Cьnlajan div səsi
O hansь nəfərin nəqməsi
O hansь işcinin zərbəli dastanь
Onunla şənlənir sosialist vətəni
Onunla şənlənir, onunla çanlanьr.
Onunla calqanьr
Qaspinin baqrьnda ujujan.
O səsin:—Qalq ojan—
nidasь
Bolşevik firqənin sədası.



## EHTIJAÇ

Qalsьnmь fabrikdə
Dəzgahьn bəndləri şirəsiz
Dursunmu bir uzun herikdə
Traqtor nə'rəsiz
Nəjyt ver!—səjləmiş firqəmiz
Ki cьqsьn jaqьnьn əlindən jaqamьz.
Qoj artsьn tələbələr
Bizi ki sarsьtmaz afaqь səbəblər
Cynky biz
Xьrdacь dejiliz.

## ZIJANCЬ

Kimdir o zijancь myhəndis
Cəkmə diz
Jalandan ənymdə
Bu gynky dəjyşgən gynymdə
Tanьram səni mən
işindən
Billrəm nə varsa çanьnda
GPU-mun gəzyndən uzaqda dejilmisin
Qoj başьn əjilsin
Firqəci işcimin janьnda

## QƏDIM BAKЬ

Qacmajьr iləri,
qacamaz
Qьrьlmьş şəhpəri,
ucamaz
Kecməjir gynləri bi-namaz
Çanamaz
ystyndə kəsilmiş taqəti

Vird etmək adəti
Getməjir qabaqa
Jyryşy bir baqa
jyryşy...
Həjatь gəryşy
Pek jəski
Bir Bakь
Başьпьп aqasь:
Ingilis darqasь
Ej Murtuz ej Nobel
Bir daha baqlamaz sənə bel
buralar.
Biz bajram edərkən jyrəgin aldьпь jaralar!
O hansь zamandь,
Hər tərəf dumandь.
O geçə...
Başьnda bir sarь dyşyпçə
Sarьjdь əjninin paltarь
Gəzirdin bulvarь
Qaspinin yzyndə ojnaşan dalqalar
qajnaşan dalqalar
Əsdikçə giləvar
Ojnardь bulvar
Ojnardь «Of»lar, ojnardь «Zadə»lər
«Zadə»lər ənyndə qьrьlmьş badələr...

## ILƏRI

Iləri!
Bakьпьп zərbəci ərləri
Iləri jeni neft planь
Sarsьtsьn çahanь!
Iləri jeni ruh, jeni çan
Bir uzun həjəçan
Baqьjь qaplasьn
Qəhraman devləri bir jerə toplasьn.
***



Ej işci sən neçə saqlьsьп buruqda
bu ruhda
Məni dəxi şeirimdə saqlьjьm
Bu səzy deməkdə haqlьjьm
Qoj məni tanьjan şeirimdən tanьsьп
Ej şeirim sən mənim işimin çanьsьп.
***

Gediriz—
Gediriz
Getməjir ucuruz
Ucuruz
Ucmajьb bir şimşək olub da caqьrьz
Aqьrьz-aqьrьz
Kecmişin yzynə sillələr vuraraq aqьrьz
Məhtəşəm jarьпь quraraq aqьrьz!

---

## HƏJƏÇAN

### HƏR ŞEJ ÇOŞƢUNDA...

Bu gyn hər kəsdə bɵjyk həjəçan var,
Bu gyn hər cɵhrədə bir xələçan var.
Hərlənir iştə bejinlər, başlar,
Hərlənir şevq ilə daƣlar, daşlar,
Hərlənir ɵlkəmizin hər tərəfi
Qoça ərzin bɵjyk işlər tərəfi.
Hərlənir, zərbəci fabriklərimiz,
Hərlənir qos-qoça elliklərimiz
Hərlənir şaxtalarьn qatlarь da
Hərlənir ordumuzun atlarь da
Hərlənir boƣlu buruƣlar dolanьr,
Buna xariçdə yrəklər bulanьr.

### QURULUŞ

Gɵstərib iştə beş illik planь
Sarsьdьb jьqdь kɵkyndən çahanь
Işcilər—ɵlkəmizin işciləri.
Cynky var bizdə mətanət kəsəri
Bɵjyk işlərdə ilərilərkən biz
Hərlənir daxili dysmənlərimiz
Biz acarkən bizə dyzgyn jollar
Syrynyr arqada, saglar «sollar».
Biz Dneprdə japьrkən şadlьq
Dalƣalardan daƣa sərpildi ьşьq,



Girişərkən işə Selmaş zavodu
Sarsьdь saƣ çəbhəji həjrət, qorqu.
Biz kəsərkən Arasьn qarşьsьnь
Gavur-arx pambuƣun ən jaxşьsьnь
Çoşaraq caƣlajaraq verdi bizə,
Qoça Kyr «mɵçyzə» gɵstərdi bizə,
Səsi gəldikçə craqban Zagesin
Mənçə bir məqsədi var hər bəhsin.
O qədər coq ki, bɵjyk işlərimiz
Onu nəql etməgə şeirim açiz...
Bu zaman bizlərə lazьm ançaq
Ən kicik şejdə bɵjyk şej aramaq.

### KƏSIR

Var bu gyn bolluça benzində kəsir
Buna lazьm, quralьm bir tədbir
O deməkdir ki, bu biz işlərkən
Dyşəçək qollarьmьz qyvvətdən.
O deməkdir ki, bu kɵjlərdə bizi
Gɵzləjirkən jeni dynja bəhsi
Bir kilit baƣlanaçaq aƣzьmьza
O deməkdir ki, bu benzin dursa
Işləjən xьzlь saatlar duraçaq
Fabrikin qəlbi də tənbəl vuraçaq.
Benzinin varlьƣьdьr varlьƣьmьz
Benzinin darlьƣьdьr «darlьƣьmьz»
Benzinin coqluƣudur «coqluƣumuz»
Benzinin joqluƣudur «joqluƣumuz»
Gyçlənirkən gyny gyndən qolumuz
Bəs azalsьn nə ycyn petrolumuz?
Benzin olmazsa bizim devlərimiz
Qalaçaqdьr hərəkətsiz, səssiz.
Benzinin azlьƣь jaxud duruşu
O deməkdir ki, sьnьflar vuruşu

Bu geniş ølkədə «sakitləşəçək».
Qolcomaqlar bizə «ystyn gələçək»
Joq sьnьf dyjqusu sənməz, sənməz
Atьlan oq geri dənməz, dənməz
Benzin artarsa iş artar coqalar
Ølkədə jyksəliş artar coqalar.
Benzinin qyvvətidir qyvvətimiz
Benzinin syr'ətidir, syr'ətimiz
Birləşib çoşsa əgər qydrətimiz
Və cəliqləşsə dəmir vəhdətimiz
Mənçə benzində xətər qalmajaçaq
Və kəsirdən bir əsər qalmajaçaq.

## S. RYSTƏMƏ

Dinlə qəlbimdə Sylejman Rystəm
Sənə dajir kiciçik bir nəqməm
Kiciçik—daq kibi bir dalqam var
Bir dənizidi ki, o dalqam caqlar...
Hajdь Rystəm, cьqalьm gəl jarьşa
Cьqalьm mevzu ycyn axtarьşa
Alәmə vəlvələ salmaq lazьm
Quruluş şairi olmaq lazьm.
Capar atlar kibi capmaqda həjat
Bizə kecməkdə bu devran hejhat..
Jatraq ujquja dalsan bir də
Bizi varlьq qojaçaqdьr geridə.

---



## NEFT

Dyn şevq ilə mə'dənləri gəzdik.
Coq baqdь buruqlar bizə dik-dik.
Bilməm nəjə durmuşdu buruqlar
—Dolsun!—dejə bir anda ojuqlar
Şən zərbəcilər mə'dəni sardь.
Mə'dəndə nəjyt azlьqь vardь.
Sarsьtdь bu azlьq bizi dərhal
Mə'dəndə çoşub gəgərdi avral
Hər guşədə «alət zaje'»
Baqdьq cyryjyb olmada zaje'
Bir janda nəjyt aqmada bom-boş
Bir işci oturmuş kibi sərxoş
Hec bir şejə baqmazdь nihajət
Verdik ona bir zərbəli təhmət.
Bir işci durub səjlədi birdən:
— Qalsьnmь nişan kəhnə kəsirdən?
Neft olmasa fabrik neçə işlər?
Neft olmasa getməz ənə işlər!
Neft olmasa gurlarmь traqtor?
Joldaş bunu qolxozçuja bir sor!
Neft olmasa işlərmi zavodlar
Parlarmь oçaqlardakь odlar.
Neft olmasa kykrərmi Zageslər
Neft olmasa joqluq bizi səslər.

Qarşьnda bəjaz cəhrəli qьş var,
Neft olmasa parlarmь baqьşlar
Beş illigi jarsьnda bitirmək.
Hər əngəli şiddətlə dəvirmək
Əlbət bu gynyn oqluna baqlь
Əlbət mənə baqlь, sənə baqlь, ona baqlь!

---



## AVRAL

Mə'dəndə bu gyn fьrtьnalar var,
Calqanmada ətrafda aqьnlar
Avralcьlarьn çoşqunudur bu
Dev səsli maşьnlar kibi gurlar.

***

Bir xejli zamandьr hərəkət joq,
Məhsullu buruqda kəsir coq
Bir işci gəlib vəçdə dejir ki
Tez verməlijiz işlərə talcoq.

***

Min at gyçy varkən çanьmьzda
Çan joq nə ycyn fantanьmьzda.
Minlərçə nəjvt haləsi parlar
Hər damla qьzьl gəz qanьmьzda.

***

Bir dəm japьşьn gyçly qolumdan
Fejz almaq ycyn bojlə hyçumdan
Mən zərbəci bir iscijəm əsla
Əlsəm belə dənməm ki jolumdan.

***

*Avral nə deməkdir geri getmək*
*Lazьm bunu bilmərrə joq etmək.*
*Avral bizim əksikligimizdir*
*Jyksəkligimizdir—catьb ətmək*

***

Mə'dəndə bu gyn fırtınalar var
Calqanmada ətrafda aqınlar.
Avralcıların çoşqunudur bu
Dev səsli maşınlar kibi gurlar.

---



## III. QURULUŞ.

## QURULTAJ.

16-çь qurultaj
Saqь «sola», «solu» saqa qatan
Əjilənləri jerindən ojnatan
Lenin rajlarьnda

**
*

Jyryjən tren...
Sərnişini miljon-miljon işçilərdən...
16-çь qurultaj
Sьnьflarь caxnaşdьran
Avropajь bir-birinə vuran
Bir dəmir alaj...

**
*

Ɵlkəmizə
Durlu-durlu giqant gərək
Giqantlarь jaratmaqa
16-çь qurultajьn qarşьsьnda
Beş qit'əji sədasilə
Sarsьtan bir and gərək.

**
*

Hər açьja koks gərdik.
Hər çəbhədə qalibijjət gostərdik.
Ɵlkəmizdə japьlan:
Bɵjyk beş illik plan...

**
*

Dunja xəritəsində
Qapital bir qurt kibi
Doqan gyndən daraşmьş.
Zulum həddini aşmьş.
Bu qurtlarь qьrmaq gərək
Dynjaja hajqьrmaq gərək
*Qapitalьn qapьsьndan*
*həjat ummaq*
*Əzdəhanьn aqzьndan*
*nəçat ummaq*
*deməkdir.*
Onun kirli məqsədi
Bizi belə, jeməkdir

***

Qərbin qazinolarьnda
Bir masa kənarьnda
Baqьşlarь sərsəri gəzən,
Cəkdigi papirosun
Xəfif dalqalarьnda
Qoçalmьş tale'inin
Son hərəkətini syzən
Qaşь catьq
Baxtь jatьq
Yz-gəzyndə xəzan aqşamlarьnьn
Kolgələri birikmiş
Cəhrəsini məçhul bir nəqtəjə tikmiş
Avropanьn qarnь şişman
Traqtor taçirinin başьndan duman qaldьran
Malьnьn qijmətini aşaqь saldьran
Beş illik plan—traqtor zavodu
Coq şişməsin Ameriqa
Fordu, qovdu
Afto cьqaran makinalarьmьz.
Pan-Avropanьn belini
Qьran makinalarьmьz.



Uqrajna şairi
Şevcenqo saq olsajdь ja
Gəlinçə təbi-şeiri
Baqьb Dneprostroja
Jeni bir eleqtrik
Qəsidəsi jazmazdьmь?
Qəsidəsi
Qapitala dərin quju
Qazmazdьmь?

***

Gyrçystanьn Zagesi...
Bizə oqur eleqtrik nəqməsi.
Zages cicəklqər, otlar arasьndan
Əlvan bulutlar arasьndan
Al şişməklər caqdьrьr
Neft jurdunu hajьstan
Jarьşlara caqьrьr.
Azarbajçan
Onun dostu hajьstan...
Siz də irişdiniz pajьnьza
Siz də qurultajьnьza
Gəstərdiniz varlьqьnьzь
Baxtьjarlьqьnьzь.
Ej Bakь!
Buruqlarьn
Cьqdь jadlar əlindən
Qurtuldun!
Xyrafatdan dindən
16-çь qurultajda
Jerini buldun.

***

Susuz, mələjən cəllər
Kyləkləri yfyqlərə
Zəhərli qum ələjən cəllər.

Bu gyn səndy yrəgində toplanan kin
Lenin gəzly əzbəgin
O zamankь Tyrksib
Cəllərə ьşьq saldь
Uzun jollar qьsaldь
Sahib oldun
Əzbək joldaş jerinə
Pambuqun xarçlanmada
Sosializm işlərinə.

**
*

Daxmasьnda tək jaşajan
Insanlara baqaçaqьz jan.
Ortaqlь təsərryfat
Sosjalizmə gedən həjat...
Myçadələ genişləjir
Iliklərə işləjir
Məhkəm sьnьf dujqusu.

**
*

*16-çь qurultaj*
Saqь «sola», «solu» saqa qatan
Əjilənləri jerindən ojnatan
Lenin rajlarьnda
Jyryjən tren
Sərnişin: miljon-miljon işcilərdən

**
*

*16-çь qurultaj*
Sьnьflarь caxnaşdьran
*Avropanь bir-birinə vuran*
*Dəmir bir alaj!*



# BƏJYK IŞLƏR

## DƏNYŞ

Mədəni hyçumu kecirdik həjata
Qalmadь kecmişdən bir nişan, bir əsər.
Minərkən, quş kibi caparaq bir ata
Bir jola salьndь əlkəmiz sərbəsər.

**
*

Indi də «syrəkli iş gyny» hər kəsi
Ajьrьr jolundan Əhmədin, Isanьn
Işləjib, çanlara carxlarьn nəqməsi
Uculur gybbəsi məsçidin, kilsanьn.

**
*

Devranьn gynləri, ajlarь, illəri
Bir başqa mehvərin başьna dolanьr.
Gəryncə bir sьra zərbəci əlləri
Kecmişin mystərib yrəgi bulanьr.

**
*

Dutuldu tarixin dolaşьq jollarь
Baqlandь yzynə gynəşli qapьmьz.
Bu kəhnə jolcunun baqlandь qollarь
Bir səslə cьqьrdьq ystynə hamьmьz:

**
*

— Biz jeni tarixin qyvvətli oqlujuz
Jolumuz başqadьr, izimiz başqadьr
Həjəçanla, həvəslə, tufanla dolujuz
Fikrimiz getdikçə çahana əl qatьr.

## JARЬŞ

Hər kəsin əlində beş illik bir plan
Hər jerdə başlamьş diqqətli aqtarьş
Hər jerdə başlamьş syr'ətlə japьlan
Qafalar sьndьran dəjərli bir jarьş.

***

Şaxtalar, zavodlar, fabriklər jarьşda
Oçaqlar, dəmirlər, ciliklər jarьşda
Cьqmьşdьr jarьşa qajьşlar təkərlər
Cьqmьşdьr jarьşa mə'dənci, cılingər.

***

Bejinlər, dujqular, yrəklər jarьşda
Sementli əzyllər dirəklər jarьşda
Sobalar qьzьşьb, təşyjyr kəryklər
Caqlajьr borular, oqujur dydyklər

***

Kəjlərə syrilə daşьnьr traqtor
Obalar kəsb edir məhtəşəm bir deqor
Tikirlər təklikdən bədgyman olub da,
Gurlajьr qolxozda, caxnaşьr qulubda.

## CATMAQ—ƏTMƏK

İndi biz çahanla cьqmьşьz jarьşa
Qoj etsin el-aləm bizləri tamaşa
Dejirlər Ameriqa gəjlərə uçalmьş
Yfyqlər onlarьn əenyndə alcalmьş



Dejirlər insanla, həjatla barabar
Nijorq şəhrində jyryjyr səkilər.
Dejirlər gəj jerə, jer gəjə qatьlmьş
Jaşajьş fordlarьn qojnuna atьlmьş.
Qoj syrsyn atьnь həvəslə Ameriqa,
Biz qьzьl bir ata minərək bam başqa
Bir xьzla sьcradьq, enişdən joquşdan
Fərqimiz olmadan, qanatlь bir quşdan
O capdь, biz capdьq, o getdi, biz getdik.
Az getdik, yz getdik, nihajət dyz getdik
Daqlardan jel kibi—
Bir daşqьn sel kibi
Kamandan sьcrajan bir sivri oq kibi
Hec nədən, hec şejdən qorqumuz joq kibi
Jyrydyk, jyrydyk—jyrydyk syr'ətlə
Qanьnda gynəşlər qajnajan bir kytlə,
Ajrьlmaz, cəzylməz joldaşça əməklə
Bir sьnьf jolilə, birliklə, kəməklə,
Dyşməni qojmaqcьn bysbytyn geridə.
Səsimiz gurladь ətədə, bəridə,

## REQONSTRUQSIJA

Tozu dumana qatdьq, dumanь toza qatdьq
Ortabab kəntliləri cəkdik qolxoza qatdьq
Jyrydyk qarşьmьzda əjildi qarlь daqlar
Jyrydyk, aramьzdan silinsin qolcomaqlar,
Jyrydyk, arqamьzça şaxələndi sementlər,
Dəjişməzmi bu halda bytyn temperamentlər—
Jyrydyk aftorlarla, eleqtiklərlə biz
Jyrydyk sajəmizdə quçaqlaşdь daq, dəniz
Jyrydyk ystymyzdən cəkildi hər qaraltь
Jyrydyk tunellərlə doldu daqlarьn altь.
Jyrydyk kycələrdə yrkyşdy cəlik atlar
Jyrydyk yfyqləri qьzartdь plaqatlar,

Jyrydyk ənginlərə cəkdik dəmir dirəklər.
Dirəklərdə dutuşdu jandь qьzьl yrəklər,
Jyrydyk cөllər boju rajlar aqdь uzandь
Tyrksib jollarьnda jatan ellər ojandь
Jyrydyk hər zərrəmiz oldu bizim aftomat.
Bu jyryşə Ameriqa өzy belə qaldь mat.

---



## CARXLARЬM

«Reqonstruqsija devrində texniqa
hər şeji həll edir...» **Stalin.**

Nə qollar jada-salsьn ənginlərin qoşunu
Nə əllər, nə ajaqlar həjatьn joquşunu
Cьqmazdь bu capqьn
Carxlar bulunmasajdь
Makinaja əsgidən
Rəqbət olunmasajdь.
Bunlarsьz aşmaq olmaz qьsьq dar kedikləri
Nal qьran joquşlarь, sьldьrьmlь dikləri
Fьrlandьqça təl kibi
Gөrynən carxьm dolan!
Qьvrьlьb bir sel kibi
Gərinən carxьm dolan!
Biz sizin sajənizdə şahiqələr atladьq
Çahanьn qafasьnda bomba kibi patladьq
Bəklənən saatlarь
Doladьq əlimizə
Hakim olduq nihajət
Jerə, gөjə, dənizə
Işcilər dəzgahьnьn dururkən baş uçunda
Dəzgahnьn nəbzini joqlarkən avuçunda
Səbirsizliklə belə
Qьvrьlan sizmisiniz?
Şəffaf kyləklər kibi
Burulan sizmisiniz?

Daş kөmyr, nөjyt flan, tөmamөn bitmiş braq
Braq, əsirgəsin də bizdən bunlarь topraq
Mən səni çanlatmaqa
Jeni jollar bulurum.
Jeni ojnaq qanatlar
Jeni qollar bulurum
Gyç, qyvvət toplajьrkən ləpələr ləpələrdən
Doqrulub dərələrdən, atlajьb təpələrdən
Halьnьza ;janaraq,
Sizi cansьz buraqmam.
Bir an bir qьrpьm belə
Həjəçansьz buraqmam.
Baq sizin sajənizdə uçalmaqda məmləkət
Zavoddakь traqtor, topraqdakь bərəkət.
Siz jerləri gөjləri
Dolaşan carxmьsьnьz.
Dyşmanla hər addьmda
Dolaşan carxmьsьnьz.



## BUXTA

Girmiş dənizin kөksynə qajnar
Qəlbindəki seilər kibi buxta
Quzqunda sijah dalqalar ojnar
Carxlar havalandьqça buruqda.
***

Tarixi binalar kibi bir çoq
Evlər gөryrəm ajna sularda.
Ərzin qanь qejzər kibi çoşmuş
Aqmaqda dəmirdən borularda.
***

Gөjlər kibi olmaqda сьraqban
Aqşamlar alьşdьqça bu evlər.
Bildim bunu vermiş necə qurban
Tikdikdə bu şən evləri, devlər.
***

Mən Buxtajь diqqətlə, fərəhlə
Xoşdur, dyşynyb sejrə qojulsam.
Zəbt ejləjərək quzqunu bojlə
Daim calьşan bir buruq olsam.

## LINOTIP

Ej qac il oturmadaŋ qalьn barmaqlarьmla
Gyllə kibi işləjən jalьn barmaqlarьmla.
Bir levhənin ystynə dyzdygym qara xətlər.

**
*

Hala iztirabьnьz jaşajьr icərimdə
Sьrdaşsьnьz, çanavar ulajьr çijərimdə
Ej yzymdə sajrьlьq, baqrьmda jara xətlər.

**
*

Pənçərəmdə cьnlajan cьlqьn jaqьş cьqlьqь
Kibi linotip səsi qaplarkən acьqlьqь
Icimdə aq toqujan ərymcək firar etdi.

**
*

Şimdi sizi makьnam sirli barmaqlarilə
Dəmirdən əllərilə, girli barmaqlarilə
Bir levhənin ystynə dyzdy bərqərar etdi.

---



# IV. GƏZLƏRIMIZ.

## PASJOLQA

Bir acьq jerdi dyn aqşam burasь
Jaşajanlardan uzaq bir jerdi.
Qəlbinin vardь dərin bir jarasь,
Geçə gyndyz su dijib, inlərdi!

**
*

Byryşyk cəhrəsi catlaq-catlaq
Gynəşin qəhrinə etmiş kyləlik
—Jolcu joq burda nə bir gəz, nə bulaq
Jolcu, təşnəjsə atьn şyr hələlik!

**
*

Dejə coq kimsəji sьzlatmьşdьq.
Baqьnьz indi bu topraqda nə var.
Daqьlьr hər buçaqьndan şadlьq
Hər kecən jolcuja şən gəzlə baqar.

**
*

Buna pasjolqa dejərlər jər-jər
Doluşub qojnuna maxlut ellər
Acaçaqdьr gərərək qollarьnь
Sosialist şəhərinin ilk jollarьnь.

---

## GƟZLƏRIMIZ

Şura hɵkymɵti + eleqtrikləşmə=qommunizm. **Lenin.**

Geçə sakit, ujumuş
Gɵjlərin bəkçisi jummuş
gɵzyny.
Geçə janqьnlarь sɵnmyş nə gələn var, nə
gedən
Pək uzaqdьr yrəgini səksəkidən,
Bir bahar gyndyzyny
Cynky andьrmada rɵjalь geçə,
Ah bu xyljalь geçə!

***

Jolumun ystynə cьqmьş baqьnьrlar şən-şən
Bu soqaqlarda kədərsiz gəzişən
Çanavar gɵzly dirəklər
Bu dirəklər kimi bəklər
Kimi joqlar
Dɵşəjirlər geçəjə
Pənbə, qьzьl jumruqlar.

***

Cьqmьşam nurlu, geniş bir jola mən
Şən sytunlarda janan qəndillər.
Geçə ulduzlardьr təqribən
—jerdə ulduz nə gəzər?



Joqsa bunlarda qьzьl quşlarmь?
Gɵjə jerdən ucurulmuşlarmь?
Ki dirəklərdə qanatlanmьşlar.
Sanki daldan dala atlanmьşlar.

***

Qəhraman işcilərin qəlbimi bunlar joqsa
Bəlkə bizim gɵzlərimizdir onlar?!
Olaçaqdьr bu dirəklər bizə jollarda asa
Dьrmanьrkən əsəbi bir ruzgar,
kibi daqdan daqa biz.
Tuş gələrsək buraqanlar dolu bir qajnaqa biz
Həp bu gɵzlər olaçaqdьr bizə rəhbər
Olaçaqdьr bu ьşьqlar bizə şəhpər.

***

Baq bu gɵzlərdə həjat mystəsna,
Bojalar kəsb edərək inçilənir.
Mən baqarkən şu qьzьl gyllərə hejrançasьna
Sanki, nurdan, susamьş gɵnlymə jaqmur
cilənir.

***

Biz bu gɵzlərlə qaranlьqlara etdikçə nyfuz
Kəsb edir gyndyzə maxsus
bir hal
Kecdigimiz tystyly, cisginli məhal...

***

Jeni dynjanь bu gɵzlərlə quranlar quraçaq

## KEŞIKÇI

Sən daima mə'dənin acьq dərvazasьnda
Gah oturur gah gəzər gah dalьr gah baqarsьn
Geçələr şu mazutlu topraqьn fəzasьnda
Diqqətli gəzlərinlə iki lampa jaqarsьn.

**
*

Icindən erpərirkən hər qьrpьmda bir kərə
Jorulmuş nəzərlərin uzar ətrafь elcər.
Jol verməz qulaqlarьn xəfif, sьnьq səslərə
Hər addьmda çanьndan şimşəkli bir xьz kecər.

**
*

Gəzlərin hərəkətdə, baqьşlarьn jarьşda
Asta-asta etərsin buruqlarьn janьndan
Mə'dəni, hər japdьqьn dəjərli axtarьşda
Qart jaqьnьn qorursun alavlь həjəçanьndan.

**
*

Bir-birinə catьlmaq istəjən kipriklərin.
Qorqar bəbəklərindən bir qaraltь dujunça.
Geçələr çanlь-çansьz ujurkən dərin-dərin
Fəqət sən mənim kibi ujumazsan dojunça.

**
*

Cynky bir sən dejilsən bu dijarda keşikci.
Hər birimiz durmuşuz bir kycənin tinində
Cynky iməkləməkdə qarь dyşmənin biçi
Gynəşlərə acьlan qapьmьzьn enyndə.

**
*



Əvət bir sən dejilsən, hamьmьz keşikcijiz.
Hər baqьş bir baqьşь hər gez bir gezy joqlar.
Hətta bu mə'dənləri bəslər çanьndan əziz
Aq saclь ixtijarlar, aqlь kəsən coçuqlar.

**
*

Sən daima mə'dənin acьq dərvazasьnda
Gah oturur, gah gəzər, gah dalьr gah baqarsьn.
Geçələr şu mazutlu topraqьn fəzasьnda
Diqqətli gezlərinlə iki lampa jaqarsьn.

---

# V. DƏJYŞ.

## YCDƏN BIRƏ

Jenə bizim gonlymyzdən
bir səs gəlir
Bu səs bizim qurduqumuz
həjat kibi jyksəlir.
Jyksəldikçə cəkir bizi ozynə
Cəkiŋ bizi
— Fikrimizi gəlbimizi
Qardaşlьqьn gynəşli gyndyzynə.

**
*

Bu səs bolşevik səsi
Bu səsə çavab verir
Miljonlarьn bejnəlmiləl nəqməsi.
Bu səsə tarladan qopur
Bu səsə dəzgahdan gəlir
Bu səsin yzərində
həjatьmьz jyksəlir.

**
*

Çana gəldik
On-onki ıl bundan əvvəl
bizə əngəl
Əsərlərin ehtiraslь əlindən
Kyryn rəngi qьzardь
Qacaraq tiflisdəki
çanavar əməlindən
Hər aqьna kecid olduq
jas syzməkdən joruldиq
Əridi həjatьmьz
Aqьmьz, bajatьmьz.

**
*

Unutmadьq Qarabaqda
Qaçarьn qarşьsьnda
Lalə kibi sallanan
qanlь-qanlь başlarь.
Unutmadьq Gyrçystandan Irana
qamcьlarla jollanan
təzələri-jaşlarь
Unutmadьq Şirvandakь talanь
joq sozymyn jalanь
Capavul Osman paşa
Şirvanь dutdu daşa.
Qьlьnçlara dajandь xənçərlər
Qapьlar, pənçərələr
jerindən cьqarьldь.
Hətta şişə gəlinlərin
çinqildəjən biləkləri qarьldı.
Unutmadьq jerli dərəbəglərin
Qьşda isti, jajda sərin
ipək sarajlarьnь
Coq eşitdik tarixin
məçhul yfyqlərindən
Joqsul, kojly qьzlarьn
Odalьqlardan gələn
gyçsyz harajlarьnь.
***
Unutmadьq cəllylərin
qarşьsьnda diz cəkən
«Oqlum əlsyn» dejərək
jalandan nin dil təkən
Hər arşьna yc cərək
syryşdyrən taçiri



Unutmadьq iki başlь qartal carь
Cəkdi bizi gah aşaqь
gah juqarь
O da illər uzunu
Bulutlu uzaqlardan
Bir qanlь şimşək kibi
sьjьrdь xənçərini.
***
Unutmadьq onlarьn
məjancьsь kəsilən
mərhəməti əksilən
Qafqazьn bəglərin.
***
Unutmadьq xalqь sojan
xalqь quru jerdə qojan
Sejidləri,
mollarь, axundlarь
dərvişləri
məsçidləri, pirləri
Bizi az ojnatmadь, bu «çənnət myxbyrləri»
***
Unutmadьq mysavatь
Menşeviki
Daşnaqь
Calьndь əməkci kytlənin haqqь
Hərəsi bir çəhangirin nəkəri
Biri Alman
digərləri, Ingilisin cakəri
Bunlar belə az qьrmadь
Bunlar da az, anqьrmadь
Bu dijarda
buralarda.
Bir gyn qalqdь bizimkilər
Kecmişləri jaqdь, jьqdь bizimkilər.

Bizimkilər
Jьqdь—qurdu
Qovdu burdan
bu yc qurdu.
**
*
Bu gyn bizim şənligimiz...
Biz hər şejə hakimiz
Hakimiz təbiətə
Kyr işlər, Zaqes işlər
Mil dyzyndə Bakьda
Aq qьzьl, qara qьzьl
dejərək hər kəs işlər.
**
*
Həjat genişləməkdə
Insanlar işləməkdə
Caqlajanlar əlimizdə gyç olur
Jarьn—savaş olursa
fikrimiz çəkic olur
Əzmək ycyn qapitalьn başьnь.
Biz atmьşьz, ataçaqьz
Tək daxmanьn
Tək økyzyn, tək tarlanьn,
Tək oçaqьn, tək odun,
Tək fabrikin, tək zavodun,
daşьnь.
**
*
Əldə beş illik plan
Bøjyk işdir—japьlan
Məqsəd dəmir iş dəmir
Həjat—tərpəniş dəmir.
Qurduqumuz bu dynjanьn
dənən çarxь dəmirdən
Mə'dənləri
şaxtalarь
tarlalarь



Gavur-arxь, dəmirdən
Bu dijarda
tyrk, erməni, gyrçy var.
Bu dijarьn
bir jьqьlmaz proletar borçu var
Sarsьtmaz
Bu borçu
qapitalьn toplarь
onlarьn hap-goplarь.
**
*
Bu dijarda xarabalьq əsəri joq.
Burada əski bajquşlarь
bir əxlaqsьz nəzərilə
caqьraçaq
Başь əsən evlərin
kølgələnmiş gozləri joq.
Burada həjat
gynəşlərin quçaqьnda xu-
marlanьr.
Burda həjat
ajlarьn
jumşaq sərin jelpigilə
tumarlanьr.
**
*
Burda həjat zərbəli
Burda həjat jarьşda
Insanlar aqtarьşda
Gynəş almьş sanki bizi jedəgə...
Heç qojarmь çanьmьza
søjuq dəjə.
**
*
Bu gyn bizim birligimiz
qьzьl kibi təmizdir.
Qьzьlьmьz—çingildəjən səsimizdir.

Bizi fabrik, bizi zavod, bizi qolxoz
bir jьqnaqa toplamьş.
Fikrimizin aqьnь
beş qit'əji qaplamьş.
Nə mysavat, nə menşevik xuljasь
Nə də daşnaq rəjasь
bizim şakit jataqlarda
ojanmaz..
Qanьmьzda əski cyryk millətcilik qaj-
namaz.

**
*

Yfyqlərdə qanadlanьr
şura Zaqafqasjasь
Bu dijarda gələçəgi salamlajьr
sosilaizm dynjasь.

---



## BIZIM OTAQDA

Otaq hejrət icindədir
Ətrafьmda gurultu.
Nəzərlərdə bir arajьş
Yrəklərdə døjynty.

**
*

Qarьşmьşdьr bir-birinə
Necə nəfər jataqdaş
Həpsi fikir jyrytmədə
Hər dimaqda bir təlaş.

**
*

Biri dejir—Məni jazma
Biri dejir—Məni jaz
Bu lazьmlь bir işdir ki,
Ondan qacmaq jaramaz.

**
*

Biri dejir:—Elə isə
Mən burada qalmaram.
Mən øz geniş həjatьmь
Cərcivəjə salmaram.

**
*

— Sən danьşma joqdur sənin
Hec sijasi savadьn.
Køhnə həjat qəfəsində
Cьrpьnarkən qanadьn

Bizim jeni yfyqlərdə
Ucamazsьn təbii
Ja sən bizdən artьqmьsьn.
— Buraqsana aj Çəbi
O girməjir qoj girməsin.
— Bu olaçaq şej dejil
Girməjənlər aramьzdan
Сьqmalьdьr bunu bil
Baq joldaşlar qommunaja
Kecmiş bytyn otaqlar.
Bu əməldən bir bizimki
Geri galmьş bir qədər.

**
*

Gəlirindən hər tələbə
Bir pajьnь verməli,
Tezlik ilə qurduqumuz
Qommunaja girməli.

**
*

Girməjənlər jerli, dibli
Kecməlidir buradan
— Neçə jə'ni kecməlidir.
Bu da sezmy?—aradan.

**
*

Rystəm haman bir davamsьz
Coçuq kibi baqьrdь
— Mən girmirəm sezyn nədir?
Dejə bərkdən сьqьrdь.

**
*

— Sən deməli qommunanьn
Ziddinəsən eləmi?
Biz bu jeni jaşajьşa
Caqьrьrkən aləmi
Sən meşçanlьq girdabьnda
Calmadasьn əl ajaq.
Bir başqasь uzandьqь
Jataqьndan qalqaraq:



— Doqrusu mən qommunaja
Danьşьqsьz girərdim.
Bəlkə onun mənə dyşən
Işini də gərərdim,
Lakin onun bişmişini
Jejə bilməm doqrusu.

**
*

Өzy bilər.
— Səndən gəlir
Mədaracь qoqusu.

**
*

— Neçə jə'ni өzy bilər.
Biz gyzəştə getmərik.
Aramьzda olmamalь
Bizim ajrь-secgilik
Bu gyn bizim qarşьmьzda
Sarsьlmajan bir jol var.
Gah ojana gah bu jana
Əjilmədən nə сьqar?!

**
*

Bir tələbə uzaqdan bu
Həngaməji syzmədə
Nəzərləri dalqьn-dalqьn
Baqdadь da gəzmədə.

**
*

O bojlədir kəndisini
Hec bir işə vuramaz.
Guşənişin bir adamdьr
Xejrə, şərə jaramaz.

**
*

Onu gərən sanar jazьq
Dyşmiş dildən ajaqdan
Iki kəlmə səz sorsanьz
Durub qacar jataqdan

**
*

— Jaxşь Çəbi javaş danьş
Kifirləşir Ələsgər.
Doqununça qulaqlara
Bu ad, haman gyldylər.

**
*

— Ej Ələsgər bitərəflik
Vaqtь dejil
— Nə var ki?
Tejmur qaqqьldajьb gyldy
— Ah bu Tejmur qojar ki...

**
*

Bəli bir padşah bir gyn darьlmьş
Qəlbinə amansьz ƣəmlər sarьlmьş
Əl calmьş vəziri gəlmiş hyzurə
Yzyny dutaraq demiş vəzirə:
— Bir dastancь gətir
Əməl olunmuş
Ansьzьn bir nəfər hazьr bulunmuş.

Zal oƣlu Rystəmin hekajətindən
Onun mərdligindən, fərasətindən

Vurub jьqmasьnь, syçaətini
Basьb kəsməsini, məharətini

Bir-bir tə'rif edib bitirən zaman
Padşah başьnь qaldьrьb haman

Sormuş ki:—Hejvandь o joqsa insan
Vaj sənin halьna myəllim olsan.

Biz burda məsələ həll etməkdəjiz
Kənardan nə varki?... sorursunuz siz

Siz jarьn myəllim olsanьz əgər
Məndən aqademiq olar. Ələsgər
Dinləjib Çəbini, bojnunu bykdy
Yzynə bir sarь qьzьllьq cəkdy.
— Nə var ki jaz məni
— Iş onda dejil



Sən øzyn iştirak etməlisən bil
Bizim quruluşda, bizim gedişdə
— Jenə fəlsəfəjə başladьn iştə
Boş jerə sьqьlьb øzyny jorma
— Jaz məni
— Məni də
— Jaz məni durma
Dejə bytynlyklə jazьldь həpsi
Bunlarьn icində fəqət birisi
Baqьb durmadajdь səssiz kənardan
Ajrьlmaq istərdi bu dalƣalardan.

Ahmьşdь gøzləri bir dərin baqьş
Icində jataƣan, dilində qarƣьş.
Yzyny turşutdu, qaşьnь catdь
Eh dejib jerində jьqьldь, jatdь.

---

## AΓ DƏNIZDƏ FЬRTЬNA

Aɣ dənizdə fьrtьna var fьrtьna
Aɣ dənizi bir tufanlь bəhran almьş sьrtьna
Çoş dəniz çoşɣun dəniz
Daş dəniz daşɣьn dəniz
Aşɣьn dəniz
Şaşɣьn dəniz

***

Iki çəbhəjə ajrьlmьş dalɣalarь dənizin
Syrynməkdə dizin-dizin
Burƶuazi—
bu çəbhənin birisi...
Digər çəbhə bizim çəbhə—
mavi koməkliklərin
Bu çəbhə sonsuz, dərin
Bir qyvvətə sarьlmьş
Daɣlarь dənizin iki qola ajrьlmьş.
Dəniz əl'an
Sьnьf dujɣusilə carpьnan
Bir qommunist qəlbi—
kibi...
Dəniz sudan qamcьlarla
Gəstərib hynərini—
Dəjəcləjir qьvrьla-qьvrьla
Italjanьn faşist sahillərini.



Dənizdə həjəçan var
Xələçan var,
xələçan...
Hər fьrtьna mavi kəmləkli bir çan...
Səndən dərindir bu fьrtьnanьn mə'nasь
Ej «Ejvazovskinin dənizdə fьrtьnasь»

***

Bu fьrtьna hələlik calqanmajan Fransanьn
Sallanьr ətəklərindən.
Bu fьrtьna çoşunça ojlə sanьn
Ki doɣaçaq bir qasьrɣa Rur kyləklərindən.
Almanja
Tarix bir pula dəjərmi ja
Sьnьf dujɣusilə qəlblər vurmasa
Fьrtьna durarmь kylək durmasa

***

Dejil bir aɣ dənizdə
Bilirsiniz bunu siz də
Atlas dənizində, Baltiq dənizində.
Bu dənizlərin ən qaranlьq dəhlizində
Fьrtьnalar vermiş baş-başa.
Ej Polşa
Jarьn hərb olsa əgər
Fьrtьnamьz çoşaçaq
Olaçaq hər dalɣasь bir xənçər—
bir bьcaq.

***

Aɣ dənizdə fьrtьna var, fьrtьna
Aɣ dənizi bir tufanlь bəhran almьş sьrtьna
Çoş dəniz, çoşɣun dəniz!
Daş dəniz, daşɣьn dəniz!
Aşɣьn dəniz,
Şaşɣьn dəniz...

## JURDSUZ

Yfyqdə jorƣun gynəş erirkən damla-damla
Qaspinin ətəklərə calqanьrdь adamla.
Qaş qaralьr uzaqda gyn ərinə-ərinə
Çəkilirdi jenə də dyn aqşamkь jerinə
Gyndyzyn ьşьqlarь sьjrьlьb təpələrdən
Sijah bir rəng alьrdь ləpələr, ləpələrdən.
Bir jel əsdi ləpələr, ɵzlərini əjdilər.
Sɵhbət elədiklərim gəncdilər, təzejdilər.
Birinin baqьşlarь ajna gɵllər kibidi.
Birininki qaranlьq dənizlərin dibijdi.
Birinçi icməmişdi su, qьzlar bulaƣьndan
Pərişandь ikinçi, sevgi daş qalaƣьndan.
Bu zaman bir dilənci qadьn ɵnymdə durdu
Qojnunda bir fəlakət javrusu ujujurdu.
Arьq zərif dɵşləri cьqmьşdь jaqasьndan
Bir titrək əl uzandь qundaƣьn arqasьndan.
— Rəhm ediniz—baqdьlar bir ona bir uşaƣa
Darьlaraq saldьlar başlarьnь aşaƣa.
— Zəhləmizi tɵkdylər eh, bu diləncilər də
— Başьmьz getdi artьq—dejərək pərdə-pərdə
Səslərini açьqla eşlərim juçaltdьlar
Sanki durƣun bir gɵlə aƣьr bir daş atdьlar.



Bəlkə bir sɵz uçundan sьnan bir şişə qəlbə
Daƣlar daƣьnь vurdu bu iki şən talibə,
Qadьna haq verildi mənim qajƣьm azaldь
Qadьn getdi gɵzymdə xəjal şəklini aldь.
Qadьn məmnun, sevinçək bizdən uzaqlaşьrkən
Başqa məçhul yrəkli birinə jaqlaşьrkən
Əvət dedim, xanьmlar biz hamьmьz nankoruz
Yrəkdən mərhəmətsiz hətta viçdandan koruz.
Ijrəndiniz baqьnça siz o səfil qadьndan
Olmadьnьz xəbərdar qьrьlmьş qanadьndan.
O vətəndaş hərbinin açьqlь levhəsindən
Və çahan ƣovƣasьnьn sitəmli səhnəsindən
Arta qalan bu məçhul qadьn sizi açьtdь
Gɵnlynyzy sьqdь pək, fikrinizi daƣьtdь
Sьnьflar vuruşunda al bajraƣьn izində
Polat kibi jenilməz Qremlin qylləsində
Onun əziz qardaşь yrəginin sirdaşь
Gynlərçə carpьşьrkən, onda sizlər və bizlər
Ujurduq hər dumanlь hadisədən bixəbər
Ujurduq rahat-rahat ujurduq xumar-xumar
Rɵjamьz baxtьjardь xəjalьmьz baxtьjar.
Bizimcyn bu dynjanь onlar jaratdь getdi
«Aj kibi şəfəq verdi, gyn kibi batdь getdi»
— Onlardan bizə nə var biz hara onlar hara
Jetər nihajət verin bojlə danьşьqlara.
Xajьr bojlə dejildir o coçuƣu alaraq
Oçaqlarda tərbijə etmək istəriz, ançaq,
Ançaq bizim işimiz bu gyn başdan aşmada
Hər tərəfdə fikrimiz vuruşub dalaşmada.
Hər kicik məsələjcin, durmaƣa vaqtьmьz joq

Bu syr'ətli zamanda işimiz, gyçymyz, coq.
Fəqət şu jurdsuzlarь toplajьrьz jenə də
Gərmək ycyn onlarь ьşьqlь bir səlmədə.
Jarьn acmajaćaq əl bəlli kimsə, kimsəjə
Hər kəs əz əməgindən bataçaqdьr nəş'əjə.

1929 il

---



# VI. LIRIK QANATLAR.

## BULAQ BAŞЬNDA

Onbaşь Terlanьn necə gyndyr ki
Bir az da jyksəlmiş bahar sevinçi.
Өjlə bir səvinç ki əzəldən bəri
Baxtijar ejləmiş hər qəmli gənçi.

***

Bu gyn bitər bitməz səhra tə'limi
Dynjaja sьqmajan syrur icində,
Qajьdarkən Terlan qərargahьna
Qajnardь gozləri bir nur icində.

***

Saat altьjadək cynky bu aqşam
Dojunça gəzəçək dolaşaçaqdь.
Nihajət kəlgəsi bir sərinlikdə
Çandan sevdiginə ulaşaçaqdь.

***

